*ETNOMUSİQİŞÜNASLIQ*

*ЭТНОМУЗЫКОВЕДЕНИЕ*

*ETHNOMUSICOLOGY*

**UOT 78.07:930.25**
**DOİ** 10.65058/WNAG7319

# AZƏRBAYCANIN İLK QADIN QANUN İFAÇISI ASYA TAĞIYEVANIN ARXİV MATERİALLARININ TƏSVİRİ

**MAHİRƏ QULİYEVA***

Azərbaycan Milli Konservatoriyasının doktorantı
E-mail: mahireguliyeva353@gmail.com
https://orcid.org/0009-0003-2890-2161

**Sitat gətirmək üçün**: Quliyeva M. Azərbaycanın ilk qadın qanun ifaçısı Asya Tağıyevanın arxiv materiallarının təsviri // – Bakı: Musiqi dünyası. Beynəlxalq Elmi Musiqi Jurnalı, – 2026.Vol.28/№1 (106), – s.36-46.

**Xülasə**
Azərbaycan musiqi sənəti qədim dövrlərdən başlayaraq bu gün də müxləlif inkişaf yolları keçir. Bu yolların əsasını milli kolorit və xalq yaradıcılığı təşkil edir. Məmləkətimizin müxtəlif şəhər və rayonlarında zamanla yaşayıb-yaratmış instrumental ifaçılarımızın adlarına rast gəlirik. Axtarışlar nəticəsində bəlli olur ki, bir çox ifaçılarımızın sənəti yetərincə araşdırılmayıb və onların yaradıcılığı arxiv materialları üzərində qalıb. Belə ifaçılarımızdan biri Azərbaycanın ilk qadın qanun ifaçısı Asya Tağıyevadır.Qeyd edək ki, instrumental ifaçılarımızın yaradıcılığı nə qədər araşdırılmış görünsə də, bu məsələlər hər zaman aktuallığını qoruyub saxlamaqdadır. Beləliklə, Azərbaycanda ilk qadın qanun ifaçılıq məktəbinin yaradıcısı Asya Tağıyevanın müxtəlif səpkili çalışmaları diqqətimizi çəkdi və bu araşdırmanın əsasını yaratdı.Məqaləni yazmaqda əsas məqsədimiz – Asya Tağıyevanın yaradıcılığını araşdırmaq, ifaçılıq xüsusiyyətlərini öyrənmək və əldə etdiyimiz bilikləri ictimayyətə çatdırmaqdan ibarətdir. Bizim araşdırma metodlarımız Azərbaycanın əməkdar artisti, kanon məktəbinin ilk qadın banisi və pedaqoq Asya Tağıyevanın arxiv materialları üzərində qurulmuşdur. Məqalədə, Asya Tağıyevanın pedaqoji və ifaçılıq fəaliyyətini, respublikada və xaricdəki konsert proqramlarını təsdiq edən sənədlər təqdim olunur. Araşdırmalar üç istiqamət əsasında aparılmışdır: 1. A.Tağıyevanın ifaçılıq xüsusiyyətləri; 2. A.Tağıyeva qanun ifaçısı kimi;3. A.Tağıyevanın pedaqoji fəaliyyəti və s. Sonda qeyd edirik ki, hər bir virtuoz ifaçının musiqi xüsusiyyətləri yeni nəsil üçün ilham mənbəyi olduğundan, A.Tağıyevanın da yaradıcılığı musiqişünaslar tərəfindən diqqətlə öyrənilməli və ictimaiyyətə təqdim olunmalıdır.Beləliklə, A.Tağıyevanın yaradıcılığı praktiki, həmçinin nəzəri baxımdan tədrisdə öz yerini tapmalıdır.Bu yazı üçün Asya Tağıyevanın arxiv sənədlərini bizə təqdim edən qızı Zülfiyyə Əliyevaya dərin təşəkkürümüzü bildiririk.
**Açar sözlər:** Asya Tağıyeva, qanun, musiqi, ifaçılıq, məktəb, arxiv, materiallar.

* © Mahirə Quliyeva, 2026

CC BY 4.0 DEED
Attribution 4.0 International

**Giriş.**

Azərbaycan musiqi sənəti qədim dövrlərdən başlayaraq bu gün də müxləlif inkişaf yolları keçir. Bu yolların əsasını xalq yaradıcılığı təşkil edir.

Qədim zamanlarda olduğu kimi müasir dövrümüzdə də ifaçılıq sənətinə və musiqi çalğı alətlərinin təkmilləşdirilməsinə diqqət yetirilir. Müxtəlif dövrlərin tələblərinə uyğunlaşaraq instrumentalçılarımızın qarşısında yeni məsələlər durur və fərqli ifaçılıq məktəblərinin yaranması üçün zəmin yaradır. Hər bir tanınmış ifaçı özünəməxsus musiqi təsviri və yanaşması ilə fərqlənir.

Azərbaycan ifaçılıq məktəbi fərqli sənətkarların adları ilə zəngindir. Onların bir neçəsinin adını qeyd etmək məqsədə uyğundur: tar aləti üzrə – Qurban Pirimov, Bəhram Mansurov, Əhsən Dadaşov, Həbib Bayramov, Vamiq Məmmədəliyev və çoxsaylı gənclərin adlarını bu siyahıya daxil etmək olar; kamança – Elman Bədəlov, Habil Əliyev, Şəfiqə Eyvazova, Arif Əsədullayev və gənc nəsil ifaçıları; balaban aləti üzrə – Əli Dədə Kalvalı, Bəhruz Zeynalov, Ələkbər Əsgərov, Elşad Cabbarov, Şirzad Fətəliyev və başqaları; qanun aləti üzrə – Asya Tağıyeva, Gülarə Tagiyeva, Yaqut Məmmədova, Təranə Əliyeva və yeni nəsil ifaçılarımız da bu siyahını davam etdirir.



Şəkil: 1. Asya Tağıyeva

Məqsədimiz – ifaçılarımızın sənətini ətraflı araşdırmaq və milli dəyərlərimizi xalqa çatdırmaqdan ibarətdir. Bu yazıda yer alan ifaçılarımızdan biri, Azərbaycanda ilk qadın qanun aləti üzrə məktəb yaratmış Asya Səttar qızı Tağıyevadır.

Azərbaycanın çox qədim musiqi alətlərindən biri sayılan qanun aləti Yaxın və Orta Şərqdə, eləcə də Azərbaycan ərazisində tarixən geniş yayılmışdır. Azərbaycan klassikləri – Nizami Gəncəvi, Məhəmməd Füzuli və başqaları öz əsərlərində qanun aləti haqqında yazmışlar. XII əsrdə yaşayıb-yaratmış, Şərq musiqi elminin bilicisi şairə Məhsəti Gəncəvi qanun və çəng alətlərinin məharətli ifaçısı olmuşdur. Uzun tarixi inkişaf yolları keçən qanun aləti zaman-zaman formalaşaraq, dövrümüzə çatdırılmışdır.

Azərbaycan musiqi mədəniyyəti tarixində xüsusi xidmətləri olan Məşədi Cəmil Əmirov 1912-ci ildə Türkiyədə olarkən, Şərqdə məşhur olan musiqi alətləri – ud, həmçinin qanunda çalmağı öyrənmiş və 1913-cü ildə vətənə qayıdarkən özü ilə bu iki aləti gətirmişdir.

Asya Tağıyevanın xatirələrindən:

> Mən, Azərbaycanın ilk qanun ifaçısı, Respublikanın əməkdar artisti Asya Səttar qızı Tağıyeva 25 yanvar 1935-ci ildə Yerevan şəhərində anadan olmuşam. Yerevan Konservatoriyasını bitirmişəm. 1956-1957-ci illərdə Moskvada sənətimdə uğurlara görə və VI Ümümdünya Festivalında III dərəcəli medalları ilə təltif olunmuşam. Festivalda böyük karifeylərimiz, o cümlədən Səid Rüstəmov mənim ifamı bəyənmişlər. Mən, müsəlman qızı olduğuma görə İrəvandan Bakıya dəvət etmişlər.
>
> 1958-1964-cü illərdə Bakı şəhəri Radio və Televiziyanın Xalq Orkestrində (S.Rüstəmov adına Xalq Çalğı Alətləri Orkestri) solist işləmişəm. Moskva şəhərində keçirilən 10 gün Dekada da Böyük Teatrda 1-ci nömrə ilə "Bayatı Şiraz" muğamı ifa etmişəm və Fəxri Fərmanla təltif olunmuşam [Şəkil: 1].

Asya xanımın arxiv sənədləri arasında İrəvan şəhərində, S.M.Kirov adına Orta məktəbdə təhsil aldığını təsdiq edən bir xatirə fotoya rast gəlirik [Şəkil: 2].




**Şəkil: 2. Asya Tağıyevanın İrəvan şəhərində təhsil aldığı Sergey Mironoviç Kirov adına Orta məktəbin müəllim və şagirdləri ilə birlikdə xatirə şəkil (1952-1953)**

Azərbaycanın ilk qanun ifaçısı Asya Tağıyeva 1959-cu ildə onun ifasında ilk dəfə Azərbaycanda bu alətdə "Bayatı-Şiraz" və "Çahargah" muğamları vala yazılıb [Web: 3].

1957-ci ildə Moskva şəhərində keçirilən "Tələbə və Gənclərin VI Ümumdünya festivalı"nda Asya Tağıyeva yaradıcılıq müvəffəqiyyətlərinə görə Qızıl medalla təltif olunmuşdur. Festivalda çıxış edəndən sonra xalq artisti, bəstəkar Səid Rüstəmov Asya xanımı Azərbaycana dəvət edir. O, Respublika Mədəniyyət Nazirliyinin dəvətilə Bakıya gəlir. Asya xanımın Azərbaycana gəlişi ilə qanun ifaçılıq məktəbinin əsası qoyulur. O, bir müddət Azərbaycan televiziyası və radiosunun Xalq Çalğı Alətləri orkestrində çalışır.

Asya Tağıyeva bu sənətə gəlişini belə xatırlayır:

Uşaqlıqdan musiqini çox sevmişəm. İrəvanda yaşayarkən pionerlər evində xor dərnəyinə gedirdim.1954-cü ildə musiqi məktəbinə daxil oldum. Əvvəlcə vokal sinfində oxumaq istəyirdim. Çünki müsabiqələrdə yaxşı oxuduğuma görə mənə vokalist olmağımı məsləhət görürdülər, ancaq yaşım çatmadı. Bu aləti görəndən sonra xoşuma gəldi və kanonda (qanunda) çalmağa başladım. Mənə evdə alət almaq istəmirdilər. “Ermənilərlə oxuyur, yəqin, müğənni olacaq”, – deyə fikirləşirdilər. Ancaq mən inadkarlıq göstərərək müsabiqədən keçib kanon (qanun) sinfinə daxil oldum. Sonra məni Ermənistanın Dövlət rəqs ansamblına dəvət etdilər. 1956-cı ildə Moskva dekadası başlandı. Dekadada uğurlu iştirak etdiyim üçün "Əməkdə müvəffəqiyyətə görə" medalı və bir aylıq əmək haqqı ilə təltif olundum. Bir ildən sonra Moskvada Ümumdünya festivalında iştirak etmək üçün təşkil olunan müsabiqədə I dərəcəli diploma və qızıl medala layiq görüldüm. Festivalda isə III dərəcəli bürünc medal qazandım.

Həmin festivalda Asya xanım dünyaşöhrətli kinoaktyor Radj Kapur ilə tanış olur. Təqdim olunan şəkildə onların rəsmi əks etdirilmişdir [Şəkil: 3]



**Şəkil: 3. Asya Tağıyeva və Radj Kapur**

Asya xanım yazır:

Azərbaycandan olan nümayəndələr komissiyanın üzvü olarkən azərbaycanlı qızı olduğumu bilib, mənimlə maraqlandılar. Onlar məni işləmək üçün Bakıya dəvət etdilər. Mən də onların təklifini qəbul etdim” (arxiv sənəd).

1958-ci Dövlət Televiziyasının Xalq Çalğı Alətləri Orkestrində solist kimi işə başladım. Bir il sonra Moskvada keçirilən Azərbaycan ongünlüyündə iştirak etdim. Dekadanın açılışı mənim solo ifamda "Bayatı-Şiraz" muğamı ilə başladı [1]. Dekadadan

sonra Ali Sovetin Fəxri Fərmanı ilə təltif olundum. Ailə qurandan sonra da orkestrdə fəaliyyətimi davam etdirirdim.

1963-cü ildə incəsənət ustalarının Bolqarıstan şəhərində keçirilən bir aylıq solo konsertində iştirak etdim. Müslüm Maqomayev, Sara Qədimova, Habil Əliyev, Lütfiyar İmanov, Sona Aslanova kimi tanınmış sənətkarlarla birlikdə mən də səhnəyə çıxdım. Qayıdandan sonra Filarmoniyanın solisti kimi fəaliyyətə başladım. Eyni zamanda, İncəsənət İnstitutunun teatrşünaslıq şöbəsində oxuyurdum. Aydın Qaradağlı, Lütfiyar İmanov da mənimlə oxuyurdular.

1964-cü ildə Moskvanın Kreml sarayında bəstəkar Zakir Bağırovun "2 arfa üçün" əsərini çaldım. Bu ifam Moskva arfa ustalarının çox xoşuna gəldi və Zakir Bağırovdan bu əsəri 4 arfa üçün yazmasını xahiş etdilər. Bir il sonra Moldovada keçirilən ongünlükdə də görkəmli sənətkarlarla bir yerdə solo ifamla çıxış eləmişəm. Eləcə də Kiyevdə keçirilən bir aylıq konsertdə solo ifam böyük rəğbətlə qarşılandı. Yaxşı bir alətimin olmasını həmişə arzulayırdım. Bu barədə maestro Niyazidən də xahiş eləmişdim ki, mənə yaxşı bir alət tapsınlar. Türkiyədə radio vasitəsilə konsert verəndən sonra İstanbul radiosunun solisti Sumar məni dəvət elədi. İfamdan o qədər xoşlandı ki, çalandan sonra bir neçə türk musiqilərinin notları ilə birlikdə öz sədəfli alətini mənə bağışladı... " (arxiv sənəd).

Asya xanım 1965-ci ildən əməkdar incəsənət xadimi Əhməd Bakıxanovun rəhbərliyi ilə Xalq çalğı alətləri ansamblında çalışmağa başlayıb. O dövrlərdə filarmoniyanın konsert afişalarında tez-tez Asya Tağıyevanın adını Rəşid Behbudov, Sara Qədimova, Şövkət Ələkbərova, Islam Rzayev, Əhsən Dadaşov, Xan Şuşinski, Niyazi, Arif Babayev, Şəfiqə Eyvazova, Natəvan Şeyxova, Canəli Əkbərov, Hacı Məmmədov və başqa korifey sənətkarlarla birlikdə görmək olurdu.

### "Qanun" sinfinin müəllimi

Asya xanım Cahangir Cahangirovun rəhbərliyi ilə Azərbaycan Dövlət Filarmoniyasının Mahnı və Rəqs ansamblında bir müddət çalışmışdır. Bu ansamblla dünyanın bir çox ölkələrində, keçmiş Sovet Ittifaqının Moskva, Leninqrad, şəhərlərində, Ukrayna, Orta Asiya, Pribaltikada qastrol səfərlərində müvəffəqiyyətli çıxışlar etmişdir.

1965-ci ildə Asəf Zeynallı adına Musiqi Məktəbində "Qanun" sinfi açıldı və Asya Tağıyeva müəllim təyin edildi.

Qeyd etməliyik ki, A.Tağıyevanın yaradıcılığı çox zəndindir. Görkəmli sənətkarın müxtəlif sənədləri arasında tələbələri üçün hazırladığı metodiki tövsiyələrə rast gəlmək mümkündür.

Təqdim olunan sənəddə biz nəinki onun yazılarına, həmçinin öz əlləri ilə çəkilmiş qanun, santur və knar alətlətlərinin rəsmləri də təsvir olunmuşdur [Şəkil: 4, 5, 6, 7]:



**Şəkil 4. Əl quruluşunun təsviri.**



**Şəkil 5. Qanun, santur, knar**



**Şəkil 6. Oturuş qaydaları**

Dəftər üzərində yer alan rəsmlər və metodiki tövsiyələr sənədin dəyərindən bəhs etdi. Sual yaranır ki, nədən bu yazılar indiyədək Asya Tağıyevanın adı ilə nəşr olunmayıb? Nədən zamanında bizim ustadların miras qoyduğu tövsiyələr zamanında xalqa çatdırılmayır? Ümidvarıq ki, musiqişünaslarımız araşdırmalarında daha fəal olaraq milli dəyərlərimizi öz yazılarında milli dəyərlərimizi nəinki xalqa, eləcə də dünya səviyyəsində tanıdacaqlar. Bu kimi məsələlərə ciddi yanaşaraq tariximizi və milli musiqi sərvətimizi qoruyub saxlaya bilərik.

Azərbaycanda qanun aləti uzun illər inkişaf yolu keçmiş və bir neçə ifaçının adını qeyd etmək vacibdir: XVI əsr – Mövlanə Qasım Qanuni (I Şah Təhmasibin kürəkəni), Rəvanlı Mirzə, Rəvanlı Heydər, Hafiz Məclisi; XVII əsr – Bəhram Mirzə (Şah Abbasın nəvəsi), yaxın keçmişdə Məşədi Cəmil Əmirov (1875-1928) və başqaları. Adları çəkilən kişi qanun ifaçıları ustad-şagird ənənələrinə əsaslanaraq bu sənəti əsrlərlə ötürmüşlər. Lakin Asya xanım, Azərbaycanda ilk qadın qanun ifaçılarından və klassik məktəbin yaradıcılarından biri olub. Bilindiyi kimi o, yeni nəsil qanun ifaçıları üçün böyük məktəb yaratmışdır.

Asya xanım ifaçılıqla yanaşı, müəllimlik fəaliyyətinə görə də bir çox fəxri fərmanlarla təltif olunmuşdur. Bunlar müxtəlif illərdə müsabiqələrdə müvəffəqiyyətli tələbə hazırlığına görə verilmiş mükafatlar idi.

1984-cü ildə Asya Tağıyeva Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyasında "Qanun" sinfinin fəaliyyətinə rəhbərlik etmək üçün dəvət olunur. O, 1988-89-cu illərdə burada müəllim

kimi fəaliyyət göstərir. Asya Tağıyeva fəaliyyət göstərdiyi 45 il ərzində çoxlu sayda tələbələr yetişdirib. İndi onların sorağı dünyanın bir çox ölkələrindən gəlir.

1967-ci ildə Asya Tağıyeva Azərbaycan Radio və televiziyasında Gülarə Əliyevanın rəhbərliyi ilə yaranmış "Dan Ulduzu" instrumental ansamblına dəvət alıb və bir müddət bu kollektivdə çalışıb [Şəkil: 9].



**Şəkil: 9. "Dan Ulduzu ansamblı"**

Sənətkarın arxiv sənədləri arasında bir şəkil diqqətimizi çəkdi. Burada İslam Rzayevin rəhbərliyi ilə Xalq çalğı alətləri ansamblının ifaçıları arasında Asya xanımın yanında dünyaşöhrətli nəfəs çalğı alətlərinin virtuoz-yenilikçi ifaçı Ələkbər Əsgərovun da fotosunu görmək mümkündür [Şəkil: 10]



**Şəkil: 10. İslam Rzayev (xanəndə), Ələkbər Əsgərov (klarnet), Asya Tağıyeva (qanun)**

Aşağıda təqdim olunan sənəd onu təsdiq edir ki, A.Tağıyeva 1965-ci ildə M.Əliyev adına Azərbaycan Dövlət İnstitutunun teatrşünaslıq fakultəsinə daxil olur və 1972-ci ildə teatrşünas ixtisası üzrə bitirmişdir [Şəkil: 11].


ДИПЛОМ

Щ № 310433

Бу дипломун саһиби Тағыјева Асја Сәттар гызы 1965-ҹи илдә М.А. Әлијев адына Азәрбајҹан Дөвләт Инҹәсәнәт Институтунун театршүнаслыг факүлтәсинә дахил олмуш вә 1972 илдә Театршүнас ихтисасы үзрә там курсу битирмишдир.

Дөвләт имтаһан комиссијасынын 1972 ил 28 ијун тарихли гәрары илә она театршүнас ихтисасы верилмишдир.

Дөвләт имтаһан комиссијасынын сәдри

Ректор

Катиб

Бакы шәһәри „5" ијул 1972 ил.

Гејд № 81

Азероиджанский яз.

ДИПЛОМ

Щ № 310433

Настоящий диплом выдан Тагиевой Асе Саттар кызы в том, что она в 1965 году поступила в Азербайджанский Государ. ин-т Искусств им. М.А. Алиева и в 1972 году окончила полный курс театроведческого факультета по специальности театровед.

Решением Государственной экзаменационной комиссии от „28" июня 1972 г. присвоена квалификация театроведа.

Председатель Государственной экзаменационной комиссии

Ректор

Секретарь

Город Баку „5" июля 1972 г.

Регистрационный № 81

Московская типография Гознака. 1969.

**Şəkil: 11. Asya Tağıyevanın tetrşünaslıq üzrə Ali təhsil Diplomu (1965-1972)**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Asya Səttar qızı Tağıyevaya **Əməkdar Artisti** fəxri adı verilməsinə dair 199 nömrəli sərəncamın vəsiqənin surətini təqdim edirik [Şəkil: 12]:


AZƏRBAYCAN RESPUBLİKASI
FƏXRİ ADININ VƏSİQƏSİ
№ 00337
Azərbaycan Respublikası Prezidentinin
2009-cu il 7 mart tarixli
199 nömrəli Sərəncamı ilə

Tağıyeva
Asya
Səttar qızına
"Azərbaycan Respublikasının
əməkdar artisti"
fəxri adı verilmişdir.
Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEV

**Şəkil: 12. A.Tağıyevanın Əməkdar Artisti adı verilməsinə dair 199 nömrəli sərəncam**

Məqalənin sonunda yenə də Asya Tağıyevanın fikirləri ilə yekunlaşdırmaq istərdik:

Kanon" Nizaminin, Füzulinin əsərində təsvir olunub. Klassik irsdə alətlərin bəhsində "sən nə qədər bəxtəvərsən ki, öz sevdiyin adamın qucağında uzanmısan" – deyə kanon (qanun) alətini təsvir ediblər. Bu alətin tarixi naməlumdur. O vaxt sərhədlər açıq olanda get-gəl çox olurmuş. Ona görə də hansı ölkədən gətirildiyi dəqiq bilinmir. Ermənilər də özləri üçün götürüb çalıblar. İrəvanda kanon (qanun) çalmaq üzrə 3-cü tələbə mən olmuşam. Azərbaycanda da ilk kanonçalan mən olmuşam. O vaxt qəzetlərdə bu başlıqla yazılar da gedirdi. Mən radioda, televiziyada, dövlət konsertlərində solo çalırdım... [arxiv sənəd].

Asya Tağıyeva 2011-ci ildə 76 yaşında Bakıda vəfat edib.

Məqalədə yer alan arxiv sənədlərin təqdimatına görə və bizə dəstək olan Asya Tağıyevanın qızı Zülfiyyə xanıma dərin təşəkkürümüzü bildiririk.

Asya xanım həyat və yaradıcılığı haqqında çox az sayda mənbələrə rast gəldiyimiz üçün məqalə əsasən arxiv sənədləri üzərində qurulmuşdur. Görkəmli şəxsiyyət, Azərbaycan qanun alətinin akademik ifaçılıq məktəbinin yaradıcısı, ilk qadın ifaçısı Asya Tağıyevanın gördüyü işləri barəsində bir məqalə yazısında əhatə etmək mümkün deyil. Asya xanımın sənəti və rəngarəng yaradıcılığı daha dərindən araşdırmalıdır və xalqa çatdırılmalıdır.

Ümidvarıq ki, onun Azərbaycan qanun ifaçılıq məktəbi üçün gördüyü işlər araşdırılıb dissertasiya səviyyəsində təqdim olunacaq.

**Ədəbiyyat**

1. Azərbaycanın ilk kanon ifaçısı. / – Bakı: "Mədəniyyət" qəzeti. – 8 avqust, – 2012;
2. Babayeva, M. və Babayeva, S. İrəvanlı qanun ifaçısı Asya Tağıyeva / –Naxçıvan: – 2025, – 71 s.;

**Saytoqrafiya**

3. Web: https://youtu.be/BDhbNcRn54Y?si=EqxU3oTGLE5QM896
Asya Tağıyevanın ifasında "Bayatı-Şiraz" muğamından fraqment;
4. Web: https://share.google/0C92IUUma5L5B1Ezh
5. Azərbaycanın ilk kanon (qanun) ifaçısı.
6. Web: https://youtu.becom/watch?v=BDhbNcR54&feature=shared
Asya Tağıyevanın Kreml sarayında ifası;

7. Web: https://youtu.be/0vRhAJKWgwA?si=Ee62mTz6SxKSe-z7

Zülfiya Əliyevanın təqdimatında valideynləri haqqında;

8. Web: https://youtu.be/u47thsap7kw?si=RKCfrEnyGjXxLzrg

Təranə Əliyeva müəllimi Asya xanım haqqında;

9. Web: https://youtu.be/abTkmtiVMr8?si=xUCIxnKJFLY04_s

AZTV, MƏDƏNİYYƏT, Milli Azərbaycan Tarix Muzeyi;

10. Web: https://youtu.be/Qeh-C0rTi5w?si=PEQ0DZshQJG4alyQ

Asya Tağıyavanın ifasında "Rast" muğamından bir fraqment;

11. Web: https://youtu.be/x1vYPBTJiqE?si=YT-8NGN9lUHY-MNZ

Asya Tağıyeva "Qarabağ Şikəstəsi";

12. Web: https://youtube.com/watch?v=sR1UyrOV&feature=shared

Asya Tağıyeva və Zeynəb Xanlarova "Ay mənim Arzu qızım".

## ОПИСАНИЕ АРХИВНЫХ МАТЕРИАЛОВ ПЕРВОЙ В АЗЕРБАЙДЖАНЕ ЖЕНЩИНЫ КАНОНИСТКИ АСИ ТАГИЕВОЙ

**МАХИРА ГУЛИЕВА**
*Докторант Азербайджанской Национальной Консерватории*

**Резюме**

Азербайджанское музыкальное искусство с древних времен проходило различные пути развития и продолжает развиваться по сей день. В основе этих путей лежат национальный колорит и народное творчество. Мы встречаем имена инструментальных исполнителей, которые жили и творили на протяжении многих лет в различных городах и регионах нашей страны. В результате проведённых поисков стало ясно, что творчество многих наших исполнителей недостаточно изучено, и необходимы новые статьи. Одной из таких исполнительниц является Ася Тагиева, первая женщина, исполняющая канун в Азербайджане.Следует отметить, что, как бы тщательно ни исследовалась работа наших инструменталистов, эти вопросы всегда остаются актуальными. Таким образом, разнообразные стили деятельности Аси Тагиевой, основательницы первой в Азербайджане школы исполнения кануна для женщин, привлекли наше внимание и легли в основу данного исследования. Наша главная цель при написании статьи – изучить творчество Аси Тагиевой, исследовать её исполнительское мастерство и донести полученные знания до общественности. Наши методы были основаны на исследовании архивных материалов заслуженной артистки Азербайджана, первой женщины основательницы школы канона и педагога Аси Тагиевой. В статье представлены документы, подтверждающие педагогическую и исполнительскую деятельность Аси Тагиевой, а также ее концертные программы в республике и за рубежом. Исследование проводилось по трем направлениям:1. Характеристики исполнительской деятельности А. Тагиевой; 2. А. Тагиева как исполнительница кануна; 3. А. Педагогическая деятельность Тагиевой и др. В заключение отметим, что, поскольку музыкальные особенности каждого виртуозного

исполнителя являются источником вдохновения для нового поколения, творчество А.Тагиевой также должно быть тщательно изучено музыковедами и представлено публике. Таким образом, творчество А. Тагиевой должно найти своё место в преподавании как с практической, так и с теоретической точки зрения. Мы выражаем глубокую благодарность дочери Аси Тагиевой, Зульфии Алиевой, которая предоставила нам архивные документы для создания статьи.
**Ключевые слова:** Ася Тагиева, право, музыка, исполнительское искусство, школа, архив, материалы.

## DESCRIPTION OF ARCHIVAL MATERIALS OF AZERBAIJAN'S FIRST FEMALE CANONIST ASYA TAGHIYEVA

**GULİYEVA MAHİRA**
Doctoral candidate at the Azerbaijan National Conservatory

**Abstract**
Azerbaijani musical art has gone through various paths of development since ancient times and continues to develop to this day. These paths are based on national character and folk art. We come across the names of instrumental performers who lived and worked for many years in various cities and regions of our country. As a result of the conducted research, it became clear that the work of many of our performers has not been sufficiently studied, and new articles are needed. One of such performers is Asya Taghiyeva, the first woman to perform qanun in Azerbaijan. It should be noted that no matter how thoroughly the work of our instrumentalists is studied, these questions always remain relevant. Thus, the diverse styles of work of Asya Taghiyeva, the founder of the first qanun performance school for women in Azerbaijan, attracted our attention and formed the basis of this study. Our main goal in writing this article is to study the work of Asya Taghiyeva, explore her performing skills, and convey this knowledge to the public. Our research methods are based on archival materials of Honored Artist of Azerbaijan, the first female founder of the Kanon School of Performance, and teacher Asya Taghiyeva.This article presents documents confirming Asya Taghiyeva's teaching and performing activities, as well as her concert programs in the republic and abroad. The research was conducted in three areas: 1. Characteristics of A. Taghiyeva's performing activities; 2. A. Taghiyeva's a kanun performer; 3. A. Taghiyeva's teaching activities and others. In conclusion, we note that, since the musical characteristics of each virtuoso performer are a source of inspiration for a new generation, the work of A. Taghiyeva should also be carefully studied by musicologists and presented to the public.  Thus, A. Taghiyeva's work should find its place in teaching from both a practical and theoretical perspective.We express our deep gratitude to Asya Taghiyeva's daughter, Zulfiya Aliyeva, who provided us with archival documents for this article.
**Keywords:** Asya Taghiyeva, canon, music, performing arts, school, archive, materials.

**Məqalənin redaksiyaya daxilolma tarixi**: 07.01.2026

**Qəbulolunma tarixi**: 02.02.2026